AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 52

Bakı şəhəri 10 fevral 2015-ci il

AMEA-nın beynəlxalq elmi əlaqələrinin genişləndirilməsi və səmərəli koordinasiyasının təşkili haqqında

Beynəlxalq elm məkanına inteqrasiya, dünya elminin nailiyyətlərinin öyrənilməsi, eləcə də xarici ölkələr və beynəlxalq təşkilatlarla elm sahəsində qarşılıqlı əməkdaşlıq AMEA-nın həyata keçirdiyi elm siyasətinin əsas istiqamətlərindən biridir. Son iki ilə yaxın müddətdə beynəlxalq elmi əlaqələrin dinamik inkişafı məqsədyönlü fəaliyyətin nəticəsi kimi qiymətləndirilməlidir. Bu fəaliyyətin daha da effektivliyini təmin etmək məqsədilə AMEA-nın elmi müəssisələri ilə AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsi arasında səmərəli koordinasiyanın təşkili qarşıya qoyulan məqsəd və vəzifələrin həyata keçirilməsində olduqca böyük əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, beynəlxalq elmi əlaqələrin əhatə dairəsinin genişləndirilməsi, həmçinin akademiyadaxili faydalı əlaqələndirmə işinin təşkili məqsədilə:

1. AMEA-nın institut və digər elmi müəssisələri rəhbərlərinə tapşırılsın ki, beynəlxalq əlaqələrini əhatə edən bütün fəaliyyət istiqamətləri üzrə (xarici ezamiyyətlər, görüşlər, beynəlxalq konfranslar, əməkdaşlıq müqavilələri, beynəlxalq qrant və proqramlarda iştirak və s.) məlumatları hesabat ilinin hər rübü üzrə (3 ayda bir dəfə olmaqla) müvafiq qaydada elektron və kağız variantında AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinə təqdim edilməsini, eləcədə bu sahədə Beynəlxalq əlaqələr idarəsi ilə fəal qarşılıqlı əməkdaşlığı təmin etsinlər.
2. AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinə (geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent Q.Babayev)

tapşırılsın ki, AMEA-nın institut və digər elmi müəssisələri ilə Beynəlxalq əlaqələr sahəsində koordinasiyanı təşkil etsin.

3. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT